| | |
|---|---|
| **AKTIN NÖVÜ** | AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANLARI |
| **QƏBUL EDİLDİYİ TARİX** | 11.08.2014 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 243 |
| **ADI** | “Balıqçılıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2014-cü il 27 iyun tarixli 1015-IVQD nömrəli Qanununun tətbiqi haqqında |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Respublika Qəzeti (Dərc olunma tarixi: 13-08-2014, Nəşr nömrəsi: 172), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-08-2014, Nəşr nömrəsi: 08, Maddə nömrəsi: 961) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 13.08.2014 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 290.060.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | 13201408110243 |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 12.08.2014 |

**“Balıqçılıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2014-cü il 27 iyun tarixli 1015-IVQD nömrəli Qanununun tətbiqi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Balıqçılıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2014-cü il 27 iyun tarixli 1015-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Balıqçılıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. “Balıqçılıq haqqında” Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, balıqçılıq subyektlərinin uçotunun formasını və aparılması qaydalarını üç ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanunun 9-cu maddəsinin altıncı hissəsinə uyğun olaraq, balıq və digər su bioresursları ovunun qaydalarını dörd ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

1.5. həmin Qanunun 12-ci maddəsinin birinci hissəsinin ikinci cümləsinə uyğun olaraq, akvakulturanın həyata keçirilməsi qaydasını dörd ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

1.6. həmin Qanunun 12-ci maddəsinin ikinci hissəsinin ikinci cümləsində nəzərdə tutulmuş bioloji və texnoloji əsaslandırmanın qeydiyyatına görə dövlət rüsumu məbləğinin müəyyən edilməsi ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.7. həmin Qanunun 19-cu maddəsinin yeddinci hissəsinə uyğun olaraq, təbii balıqçılıq su obyektlərinə balıq və digər su bioresurslarının yeni növlərinin və hibrid formalarının buraxılması hallarını və qaydasını üç ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.8. həmin Qanunun 19-cu maddəsinin doqquzuncu hissəsinə uyğun olaraq, balıq və digər su bioresurslarının iqlimləşdirilməsi və iqlimləşdirilmə obyektlərinin daşınması qaydalarını üç ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.9. həmin Qanunun 28-ci maddəsinin üçüncü hissəsinə uyğun olaraq, balıqçılıq təsərrüfatı ekspertizasının aparılması qaydasını dörd ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.10. həmin Qanunun 30-cu maddəsinin üçüncü hissəsinə uyğun olaraq, su mühafizə zonalarında və sahil mühafizə zolaqlarında balıq və digər su bioresurslarının xüsusi mühafizə rejiminin tətbiq edilməsi qaydasını üç ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.11. həmin Qanunun 33-cü maddəsinin ikinci hissəsinə uyğun olaraq, su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondu haqqında əsasnamənin layihəsini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.12. həmin Qanunun 35-ci maddəsinin üçüncü hissəsinə uyğun olaraq, akvakultura ilə məşğul olan fiziki və hüquqi şəxslərə tətbiq edilən vergi azadolmalarının və güzəştlərinin müəyyən edilməsi ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.13. həmin Qanunun 5-ci maddəsinin birinci hissəsində, 13-cü maddəsinin dördüncü və beşinci hissələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini həyata keçirən icra hakimiyyəti orqanları barədə təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.14. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının “Balıqçılıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.15. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Balıqçılıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki:

3.1. “Balıqçılıq haqqında” Azərbaycan Respublikası Qanununun ~~21-ci maddəsinin beşinci hissəsinin dördüncü abzasında və~~ 33-cü maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;[1]

3.2. həmin Qanunun 5-ci maddəsinin ikinci hissəsində, 9-cu maddəsinin üçüncü, altıncı, yeddinci, səkkizinci, doqquzuncu və on birinci hissələrində, 11-ci maddəsinin beşinci və altıncı hissələrində, 12-ci maddəsinin birinci hissəsinin ikinci cümləsində, ikinci hissəsinin birinci cümləsində, üçüncü hissəsinin ikinci cümləsində, altıncı və yeddinci hissələrində, 19-cu maddəsinin yeddinci və doqquzuncu hissələrində, ~~21-ci maddəsinin beşinci hissəsinin altıncı abzasında, 22-ci maddəsinin ikinci hissəsinin beşinci abzasında,~~ 28-ci maddəsinin üçüncü hissəsində və 30-cu maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan

Respublikasının Nazirlər Kabineti həyata keçirir; [2]

3.3. həmin Qanunun 9-cu maddəsinin dördüncü hissəsində, 12-ci maddəsinin beşinci, doqquzuncu və onuncu hissələrində, 18-ci maddəsinin üçüncü hissəsində, 19-cu maddəsinin beşinci, onuncu və on birinci hissələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirir.

4. "Balıqçılıq haqqında" Azərbaycan Respublikası Qanununun:

4.1. 9-cu maddəsinin üçüncü, yeddinci, səkkizinci, doqquzuncu və on birinci hissələrində, 11-ci maddəsinin beşinci və altıncı hissələrində, 20-ci maddəsinin birinci hissəsinin altıncı abzasında nəzərdə tutulmuş məsələlərin tənzimlənməsi məqsədi ilə, bu Fərmanın 1.4-cü bəndində göstərilən qaydalar aşağıdakıları əks etdirməlidir: [3]

4.1.1. balıqovlama biletinin formasını və verilmə qaydasını;

4.1.2. Azərbaycan Respublikasının Qırmızı Kitabına daxil edilmiş balıq və digər su bioresurslarının ovuna icazə verilməsi hallarını və qaydasını;

4.1.3. ovlanması nəzərdə tutulan balıq və digər su bioresursları növlərini;

4.1.4. balıq və digər su bioresursları ovunun yol verilən ümumi miqdarını (kvotasını);

4.1.5. balıq və digər su bioresurslarının ovu üçün kvotaların balıqçılıq subyektləri arasında bölünmə qaydasını;

4.1.6. idman və həvəskar ovun həyata keçirilmə vaxtı, yeri, ovlanan balıq və digər su bioresurslarının miqdarının və ölçülərinin məhdudlaşdırılması hallarını və qaydasını;

4.1.7. idman və həvəskar ov nəticəsində ovlanan balıq və digər su bioresurslarının məskunlaşdığı mühitə qaytarılması qaydasını;

4.1.8. balıq və digər su bioresursları ovunun məhdudlaşdırılması, dayandırılması və ya ona xitam verilməsi hallarını və qaydasını;

4.2. 12-ci maddəsinin ikinci hissəsinin birinci cümləsində, üçüncü hissəsinin ikinci cümləsində, altıncı və yeddinci hissələrində, 20-ci maddəsinin birinci hissəsinin altıncı abzasında nəzərdə tutulmuş məsələlərin tənzimlənməsi məqsədi ilə, bu Fərmanın 1.5-ci bəndində göstərilən qayda aşağıdakıları əks etdirməlidir: [4]

4.2.1. bioloji və texnoloji əsaslandırmanın qeydiyyata alınması qaydasını;

4.2.2. bioloji və texnoloji əsaslandırmanın nümunəvi formasını və şərtlərini;

4.2.3. akvakultura növlərinin, obyektlərinin, təsərrüfatlarının, infrastrukturunun və akvakulturanın həyata keçirilməsi üçün istifadə olunan xüsusi qurğuların və texnologiyaların təsnifatını;

4.2.4. akvakultura subyektlərinin bioloji və texnoloji əsaslandırma hazırlamaqdan azad edilməsi qaydasını;

4.2.5. akvakultura subyektinin fəaliyyətinin məhdudlaşdırılması, dayandırılması və ya ona xitam verilməsi hallarını və qaydasını. [5]

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 11 avqust 2014-cü il
243

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 17 noyabr 2014-cü il tarixli **347** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 19 noyabr 2014-cü il,   252; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il,   11, maddə 1387**)

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 17 noyabr 2014-cü il tarixli **347** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 19 noyabr 2014-cü il,   252; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il,   11, maddə 1387**) ilə 3.1-ci bənddən "**21-ci maddəsinin beşinci hissəsinin dördüncü abzasında və**" sözləri çıxarılmışdır.

[2] 17 noyabr 2014-cü il tarixli **347** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 19 noyabr 2014-cü il,   252; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il,   11, maddə 1387**) ilə 3.2-ci bənddən "**21-ci maddəsinin beşinci hissəsinin altıncı abzasında, 22-ci maddəsinin ikinci hissəsinin beşinci abzasında**," sözləri çıxarılmışdır.

[3] 17 noyabr 2014-cü il tarixli **347** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 19 noyabr 2014-cü il,   252; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il,   11, maddə 1387**) ilə 4.1-ci bənddə "**21-ci maddəsinin beşinci hissəsinin** " sözləri "**20-ci maddəsinin birinci hissəsinin** " sözləri ilə əvəz edilmişdir.

[4] 17 noyabr 2014-cü il tarixli **347** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 19 noyabr 2014-cü il,   252; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il,   11, maddə 1387**) ilə 4.2-ci bənddə "**22-ci maddəsinin ikinci hissəsinin beşinci**

**abzasında**” sözləri “**20-ci maddəsinin birinci hissəsinin altıncı abzasında** ” sözləri ilə əvəz edilmişdir.

[5] 17 noyabr 2014-cü il tarixli **347** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti, 19 noyabr 2014-cü il, 252; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 11, maddə 1387**) ilə 4.2.5-ci yarımbənddə “**təsərrüfatının**” sözü “**subyektinin**” sözü ilə əvəz edilmişdir.